*Bu gün Azərbaycan gəncləri cəmiyyətimizin fəal hissəsidir. Biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik. Bizim gənclərimiz torpaq uğrunda, Vətən uğrunda vuruşurlar... Bizim gənclərimiz bu gün sərhədlərimizi qoruyurlar. Sərhədçilərimizin böyük əksəriyyəti gənclərdir. Bizim gənclərimiz ictimai asayişi qoruyurlar. Bu gün Azərbaycan dünya miqyasında ən təhlükəsiz ölkələrdən biridir. Bizim gənclərimiz müxtəlif sahələrdə uğurla fəaliyyət göstərirlər.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



# Gənclər bugünümüzün və sabahımızın sahibləridir

**Hər bir millətin çarpan ürəyi onun gəncliyidir. Tarix dəyişsə də, gənclər estafeti davam etdirir, milli-mənəvi dəyərləri yaşadır, tərəqqiyə töhfələr verirlər. Məhz vətənpərvər ruhlu gənclik özünün sanballı sayəsində xoşbəxt gələcəyin müjdəçisi olur. İkinci Qarabağ müharibəsində müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə doğma torpaqlarımızın 30 illik erməni işğalına son qoyaraq, Şuşanı, Laçını, Kəlbəcəri... özünün əzəli sahiblərinə qaytaran çağdaş Azərbaycan gəncliyi kimi.**

Ümummilli liderimiz Heydər Əliyev həmişə gənclərə inanıb və onlara böyük ümidlər bəsləyib. Azərbaycana rəhbərliyinin hər iki dönəmində ulu öndər yüksək səviyyəli gənc nəslin yetişdirilməsini ümdə vəzifə sayıb. Dövlət orqanlarının gənclərlə iş sahəsindəki fəaliyyətini əlaqələndirmək məqsədi ilə 1994-cü ildə Gənclər və İdman Nazirliyi yaradılıb. Unudulmaz dahi şəxsiyyətin təşəbbüsü ilə 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumları keçirilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib. "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir". İlk forumda ulu öndər gənclərin qarşısında bu tarixi vəzifəni qoyub. Bundan bir il sonra tədbirin keçirildiyi gün – fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib.

Gənclər üçün fəaliyyət üfüqlərini genişləndirən dövlət proqramları, 1999-cu ildə "Dövlət gənclər siyasəti haqqında" fərmanın imzalanması Heydər Əliyevin gənclərə böyük qayğısının təzahürü idi. Gənclərlə bağlı digər mühüm sənəd 2002-ci ildə qəbul edilmiş "Gənclər siyasəti haqqında" Qanundur. XXI əsri Azərbaycanda gənclərin müstəqil dövlətimizi qurub-yaratmaq və inkişaf etdirmək dövrü kimi xarakterizə edən ulu öndərin gəncliyə olan etimadı artıq öz təsdiqini hərtərəfli şəkildə tapır.

Yeni əsrin əvvəllərindən ölkəmizdə gənclər siyasəti yeni aspektdə gerçəkləşdirilir. Prezident İlham Əliyev özünün bütün qərarları ilə ümummilli liderin gənclər siyasətinə sadiqliyini sübuta yetirir. Dövlətimizin başçısı gəncləri aparıcı qüvvəyə çevirmək və onların cari qayğılarının həllini təmin etmək məqsədi ilə 2005-2009-cu illəri əhatə edən Dövlət Proqramını təsdiq edib. Prezident İlham Əliyevin 2007-ci ilin "Gənclər ili" elan edilməsi ilə bağlı sərəncamı o zaman gənclərin fəallığının daha da yüksəlməsinə səbəb olub. Azərbaycanda müasir gənclər hərəkatının inkişafı üçün dövlət səviyyəsində kifayət qədər işlər görülüb. Bu sahədə ardıcıl və davamlı layihələr həyata keçirilib. Elm və texnologiyanın sürətli inkişafı, post-neft dövrünün başlanması Azərbaycan dövlətinin də gənclərlə bağlı zamanın tələblərinə uyğun siyasət yürütməsini zəruri edib. Bu zərurəti nəzərə alan Prezident İlham Əliyev gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə 2015-ci il yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Gənclərimizin dini ekstremizm, separatizm, beynəlxalq terrorizm kimi təhlükəli, zərərli təsirin altına düşməsinin qarşısını alan yeni iş metodlarının tətbiqi zərurəti ilə əlaqədar müvafiq sərəncamla "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı təsdiq edilib.

Azərbaycan gəncliyi özünün vətənpərvərliyi və hərb elminə marağı ilə diqqət çəkir. Artıq tarixə çevrilmiş 2020-ci ildə gənclərimizin qanı ilə yazılmış qələbə salnaməsinin sətirləri əsrlər boyu solmayacaq. Məhz gənclərimiz öz ata-babalarının şöhrət yolunu Vətən müharibəsində şərəflə davam etdiriblər. Prezident, Ali Baş Komandan İlham Əliyev Bakının Azadlıq meydanında keçirilən Zəfər paradında bu barədə fikirlərini tükənməz iftixar hissi ilə ifadə edib: "Müharibə dövründə Ermənistan ordusunda 10 mindən çox fərari olub. Azərbaycan Ordusunda bir dənə də fərari olmayıb. Yaralı əsgər və zabitlərimiz hərbi hospitallarda, xəstəxanalarda həkimlərdən xahiş edirdilər ki, bizi tezliklə sağaldın, biz qayıdaq döyüş meydanına, biz öz missiyamızı başa vurmalıyıq. Azərbaycan xalqı öz böyüklüyünü göstərdi, yüksək mənəvi ruhunu göstərdi".

Məlum olduğu kimi, gənclərin fərdi inkişafına təkan vermək, onlarda sosial məsuliyyət hissini artırmaq, gəncliyin potensialından xalqın rifahı və ölkəmizin dayanıqlı inkişafı üçün səmərəli istifadə etmək məqsədilə 2020-ci il Azərbaycanda "Könüllülər ili" elan edilmişdi. Bununla bağlı bir sıra tədbirlər həyata keçirilib, amma COVID-19 pandemiyası ilə əlaqədar müəyyən məhdudiyyətlər olub. Buna baxmayaraq, sentyabrın 27-də erməni silahlı qüvvələrinin növbəti hərbi təxribatına cavab olaraq Milli Ordumuzun başladığı əks-hücum əməliyyatları və 44 günlük müharibənin böyük zəfərlə başa çatması bütün gənclərimizin qəlbində necə böyük könüllülük potensialının olduğunu bütün dünyaya göstərdi. Ölkədə qismən səfərbərlik elan edilsə də, minlərlə gənc orduya yazılmaq istəyir, cəbhəyə yollanmaqda təkid edirdi. Döyüş bölgələrində əsgər, gizir və zabitlərimizin nümayiş etdirdiyi qələbə əzmi, yüksək vətənpərvərlik amalı hər kəsi heyran qoydu. Qarabağ zəfəri hər bir azərbaycanlının belini dikəltdi, qürurunu qaytardı. Vətənin müdafiəsinə qalxmış minlərlə gənc yüksək ad, orden və medallara layiq görüldü. Bu qələbə ovqatı qalib xalqımızı hələ uzun müddət uca-uca zirvələrin fəthinə qanadlandıracaq.

On il əvvəl Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondunun yaradılması ölkəmizdə gənclər siyasətinin elmi-nəzəri əsaslara bağlılığının, əməli nəticəliliyinin daha bir əyani sübutudur. Prezident İlham Əliyev gənc kadrların irəli çəkilməsi ilə də bağlı ardıcıl olaraq əməli addımlar atır. İndi neçə-neçə layiqli gənc özünü nazir, icra hakimiyyəti başçısı və digər məsuliyyətli vəzifələrdə doğruldur.

"Gənclər üçün Prezident Mükafatının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il tarixli fərmanı ilə hər il ölkəmizdə bu ali mükafatların verilməsi gözəl ənənə halını alıb. Elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən şəxslər həmin mükafata layiq görülürlər.

Dövlətimizin gənclər siyasətində idman da mühüm yer tutur. Ölkə rəhbərinin ardıcıl səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilmişdir. 2017-ci ildə Milli Olimpiya Komitəsinin 25 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə bu komitənin prezidenti olan cənab İlham Əliyev Azərbaycanda idmana verilən önəmi yüksək qiymətləndirib: "Bütün müvafiq qurumlar, Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, idman cəmiyyətləri, federasiyalar, klublar bir məqsədi güdür ki, Azərbaycanda idman daha da inkişaf etsin, idmanın kütləviliyi daha da geniş vüsət alsın və idmançılarımız bizi beynəlxalq yarışlarda tez-tez sevindirsinlər. Bax, bu birgə fəaliyyət nəticəsində və idmana cavabdehlik daşıyan bütün qurumlar arasındakı koordinasiya sayəsində Azərbaycan beynəlxalq aləmdə idman sahəsində çox böyük uğurlara imza atmışdır".

Azərbaycanın müxtəlif bölgələrində olimpiya-idman komplekslərinin açılması, ölkəmizin nüfuzlu beynəlxalq yarışlara ev sahibliyi etməsi, idmançılarımızın olimpiadalarda, dünya çempionatlarında və digər mötəbər turnirlərdə uğurlu çıxışları buna əyani sübutdur. Məhz idmanın yaratdığı sağlam bədən – sağlam ruh vəhdəti sayəsində gənclərimiz bu günün qəhrəmanları səviyyəsinə yüksəliblər.

Gənclərin fəallığının artırılmasında, istedadlarının üzə çıxarılmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Mehriban Əliyeva gənclərimizin uğurlarını yaxından izləyir və lazımınca stimullaşdırır. Heydər Əliyev Fondunun xəttilə reallaşdırılan tərəqqi layihələri gənclərin təşəbbüskarlığına daim yeni nəfəs verir. Mehriban xanım cənab Prezidentlə bərabər işğaldan azad olunmuş bölgələrə səfərlər etməsi bu nəcib və xeyirxah insana inamı daha da artırıb. Azadlığına qovuşmuş Şuşa şəhərinə ilk səfərə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın da qatılması xalqımız, xüsusilə də gənclərimiz üçün tükənməz qürur mənbəyi olub. Leyla xanımın təşəbbüsü ilə ölkəmizdə və xaricdə reallaşan layihələr Azərbaycanın təbliğində, gənclərimizin fəallığının artırılmasında və onların fəaliyyətlərinin əlaqələndirilməsində mühüm rol oynayır.

Hazırkı Azərbaycan gəncliyi doğma ana dilimizi, gözəl adət-ənənələrimizi göz bəbəyi kimi qoruyub yaşadır. O, öz həyatını qurarkən, ilk növbədə müstəqil Azərbaycanın gələcəyi haqqında düşünür, əməli fəaliyyətində yüksək vətəndaşlıq hisslərinə malik olduğunu nümayiş etdirir.

Bu gün ölkəmizin öz tarixinin ən şərəfli dövrünü yaşaması həm də mübariz gənclərimizin xidməti sayılır. Azərbaycanın ərazi bütövlüyü təmin olunub, hazırda Qarabağın bütün bölgələrində dövlətimizin suverenliyinin tam bərqərar edilməsi naminə əməli səylər göstərilir. Azərbaycan gəncliyi torpaqlarımızı mənfur düşməndən təmizlədiyi kimi, erməni vandallarının dağıtdığı şəhər və kəndlərimizi də başdan-başa yenidən qurmaq, gözəlliklər məskəninə çevirmək əzmindədir və buna qadirdir. Döyüş səngərlərində vəzifəsini şərəflə başa vuran gənclərimiz indi də Qarabağın zəhmət, hünər cəbhəsində öz sözünü deməkdə qətiyyətlidir.

...Bildiyimiz kimi, Prezident İlham Əliyevin sərəncamı ilə 2021-ci il Azərbaycanda "Nizami Gəncəvi ili" elan edilib. 880 yaşlı dahi şair və mütəfəkkir öz yaradıcılığında gənclərə də dəyərli nəsihətlər verib. "Yeddi gözəl" poemasından bir beyt burada yerinə düşür:

*Dünyada keçməsin boş cavan çağın,*
*Yol get ki, güclüdür indi ayağın.*

Nə yaxşı ki, bu poetik öyüd Azərbaycan gənclərinin həyat amalına çevrilib.

**Əli NƏCƏFXANLI,**
**"Xalq qəzeti"**

Xalq qəzeti 2021.- 2 fevral.- S.7.